“Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru
t.ü.e.d., prof.C.M.Cəfərov
01 aprel 2024-cü il

**Azərbaycan Dövlət Pedaqoji Universitetində professor-müəllim heyətinin seçim meyarları**

ADPU-da idarəetmənin daha da yaxşılaşdırılması, tədrisin təşkili sahəsində qabaqcıl təcrübənin tətbiq edilməsi və tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, bütün struktur vahidlərində insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi, yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, habelə universitetin idarəedilməsi strukturunun optimallaşdırılması məqsədilə mövcud və gələcəkdə ehtiyac duyulacaq ixtisaslı mütəxəssislərin cəlb edilməsi və o cümlədən vakant vəzifələr üzrə müsabiqələrin təşkili və keçirilməsində şəffaflığı və obyektivliyi təmin etmək üçün ADPU rektorunun 16 may 2022-ci il tarixli 05/97-k nömrəli əmri ilə yaradılmış Müsabiqə Komissiyası professor-müəllim və işçi heyətinin seçimini həyata keçirir. Seçim zamanı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20 dekabr 2017-ci il tarixli 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın və Azərbaycan Respublikası Təhsil nazirinin 07 avqust 1996-cı il tarixli 401 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında əsasnamə”nin tələblərinə uyğunluqdan əlavə, müraciət edən namizədlərin seçimi zamanı aşağıdakı meyarlara cavab verən namizədlərə üstünlük verilir:

1. xarici ölkədə ali təhsil almış namizədlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması və ekvivalentliyi;
2. xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adların nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması);
3. informasiya və kommunikasiya texnologiyalarından, kompüterdən (office proqramları – word, excel, power point, microsoft teams və s.) istifadə bacarığı;
4. tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;
5. azərbaycan, rus və ingilis dillərində tədris bacarığı;
6. ixtisas uyğunluğu, iş təcrübəsi, o cümlədən peşəkar bacarıqları, iddialı olduğu vəzifə üzrə ölkə və o cümlədən, beynəlxalq nüfuza malik təlimləri keçməsi, yüksək peşə-ixtisas və mənəvi keyfiyyətləri;
7. professor-müəllim heyətinin son 5 illik reytinq nəticələri, əvvəlki fəaliyyəti dövründə işə davamiyyəti barədə müvafiq strukturların qeydləri, o cümlədən açıq dərslərin nəticələri, Appelyasiya Komissiyasının, İmtahan qərargahının

müəllim barədə qeydləri, MOODLE kabinetinin olması və bu kabinetin aktivliyi (ADPU əməkdaşları üçün);

8. xarici dil və İKT müəllimləri üçün, müvafiq ixtisas üzrə beynəlxalq sertifikatlarının olması;
9. ali məktəb pedaqogikasını və psixologiyasını, o cümlədən tələbələrlə davranış qaydalarını və onlarla işin psixoloji xüsusiyyətlərini bilmələri;
10. metodik tövsiyələrin, tədris planlarının və proqramlarının tərtibini bacarmaları;
11. tədris-metodiki vəsaitlərin (fənn proqramları, dərslik və dərs vəsaitləri və s.) işlənib hazırlanması qaydalarını bilmələri;
12. elmi-tədqiqat işlərinin, o cümlədən eksperimental tədqiqatların aparılması qaydalarını bilmələri;
13. elmi tədbirlərin (simpozium, konfrans, müşavirə və s.) təşkilini və ona rəhbərliyi bacarmaları;
14. elmi təşkilatlar, mərkəzlər və alimlərlə əlaqələrin yaradılması bacarmaları;
15. professor müəllim, o cümlədən laborant-texniki heyətin vəzifələrini bilmələri;
16. təhsil sahəsində qüvvədə olan müvafiq qanunlar, normativ hüquqi aktlar, o cümlədən müvafiq qərar, qayda, əmr, təlimat və s. barədə məlumatlı olma;
17. müsahibə mərhələsində komissiya üzvlərinin suallarına verdikləri cavabları.

**QEYD:** *Şəhid ailəsi üzvlərinə, Vətən müharibəsi iştirakçılarına, ADPU-nu fərqlənmə diplomu ilə bitirmiş məzunlara və "ADPU-nun struktur bölmələrində peşəkar təcrübə proqramının təşkili Qaydası"na əsasən təcrübəni uğurlu tamamlamış namizədlərə üstünlük verilir.*

**Müsabiqə Komissiyasının sədri,**
**Tədris işləri üzrə prorektor** **dosent Eldar Aslanov**